https://doi.org/10.59849/3006-2403.2023.9.132
UOT 82-1. 512. 162

*Türkan Muzadil qızı Verdiyeva,*
*Şəkər Mürşüd qızı Məmmədova*
*AMEA Gəncə Bölməsi*
*Nizami Gəncəvi Mərkəzi*
*Gəncə ş, H. Əliyev pr. 419*
*E-mail: turkanverdiyeva86@mail.ru*

# XX ƏSR AZƏRBAYCAN POEZİYASINDA NİZAMİ GƏNCƏVİ MƏQBƏRƏSİNƏ FƏRQLİ MÜNASİBƏT

Xülasə

*Məqalədə əsas məqsəd XX əsr poeziyasında Dahi Şair Nizami Gəncəvi yaradıcılığına, xüsusilə onun yubileyləri dönəmində yazılan poeziya nümunələrini toplayıb bir araya gətirmək və ziyarətgaha çevrilən məqbərəyə yazılmış şeirləri toplamaqdır. Buradakı fərqli müəlliflərin onun qəbrinə fərqli yanaşmaları önə çıxartmaqdır. Bu şeirlər arasında məzarı ziyarətgaha gələnlərin dahi şairin fəxrlə anılmasına da rast gəlinir, onun unudulmuş dağılmış məzarına edilən, acılı giley-güzara da.*

*Açar sözlər*: Nizami Gəncəvi, XX əsr poeziyası, şeir, məqbərə, ziyarətgah

Dünya ədəbiyyatının görkəmli nümayəndəsi, Azərbaycan ədəbiyyatının dahi mütəfəkkiri, nəhəng sənətkar, alim Nizami Gəncəvi daim həm dünya ədəbiyyatının, həm də Şərqin daim diqqətində olmuş. Nizami Gəncəvi həm öz müasirlərinə, həm də sələflərinə öz dərin fəlsəfi fikirləri ilə, dəsti-xətti ilə iz qoyub getmişdir. Bu nəhəng sənətkarın milli sərvətimiz olan “Xəmsəsi” daim araşdırılmış və sonrakı ədəbiyyatımızın yazılıb yaranmasında bünövrə rolunu oynamışdır. Dahi sənətkarın adına kitablar yazılmış, ədəbiyyatda bir çox yaddaqalan obrazları yaradılmışdır. XX əsr poeziyasına nəzər saldıqda, xüsusilə də şairin yubileyləri dönəmində ona ithafən bir çox şeir, poema, bir çox sənət əsərlərinə rast gəlmək mümkün olur. Bunların içində şairin ailə-məişət mövzusuna, yaradıcılığına, Xəmsəsinə, əsasən ziyarətgaha çevrilən məqbərəsinə aid olunan bir çox fərqli mövzularda, fərqli yanaşmalarda olan şeirlərə rast gəlinir.

Bir qrup şairlər var ki, şeirlərində müəllif məzarı ziyarətə gəlir, ona ucalan abidəylə fəxr edir, məzarı ziyarət etmək qismət olduğu üçün şükr edir. Tofiq Bayramın Nizami Çələngi adlı toplusunda “Ziyarət” adlı iki bənd şeir də adından göründüyü kimi şairin ziyarətgahına həsr olunmuş bir şeir parçasıdır. Fəxrlə adını andığı şairinin dünyada məhşurluğu, dillər əzbəri olması, şan-şöhrəti insanları onu ziyarətə gətirir. Gəncəmizi bəzəyən türbəsi ilə fəxr hissi duyulur.

Ölkələr, qitələr dolaşır səsi,
Başlayıb o dünya səyahətinə.
Gəncəni bəzəyən mərmər türbəsi,
Elləri gətirir ziyarətinə [4, s.3].

Məmməd Biriya “Gəlmişəm” (Nizami Gəncəvinin məzarı qarşısında) şeirini yazmışdır. Dahi şairə həsr olunmuş bu şeirdə müəllif şairin məzarını ziyarət edərək yazır. Şairin məzarını gəlmək, görmək qismət olan müəllif nəhayət arzuma çatdım deyir. Məmməd Biriya bu misralarla, sanki insanlar öz mənəvi borclarını yerinə yetirirlərmiş kimi rahatlıq tapırlar demək istəyir.

Çatdırdı arzumu başa təbiət,
Əziz Yaxın dostlarımla, nəhayət,
Nizaminin məzarını ziyarət
Etmək üçün bu diyara gəlmişəm [1, s.2].

“Tofiq Bayram Nizaminin əmin-amanlıq, cahanda həqiqət, düzlük fəlsəfəsi, eşq ilə çırpınan ürəyi, sülhün, səadətin mübarizliyi ilə xalqın əqidəsinə çevrildiyini deyirdi. Bu da Səməd Vurğunun “Xalqın gözü də, qəlbi də vicdanı da sənsən” fikrini xatırladır ” [10].

Yuxarıda qeyd etdiyimiz Tofiq Bayramın “Nizami çələngi” Nigar Rəfibəylinin “Nizamiyə” şeiri bir birinə oxşardır. Hər iki şairin şeirlərində məzarı ziyarətə gələnlərin fəxr hissləri duyulur.

Qalx böyük şairim bu gün heykəlin
Ucalmış o köhnə qəbirin üstdə
Hörmətlə görməyə gəlirlər səni
Ölkəmin qızları hey dəstə dəstə [8, s.392]

Burada şairə xanım növbəti misraların birində “Nizaminin ömür karvanının əbədiyyət oldu” deməsi ilə adını əbədiyyətə yazdıran şairin yuxarıdakı misralarda köhnə qəbir ilə bugünkü vəziyyətini qarşılaşdıraraq unudulan şairə olan hörmətin və məhəbbətin itmədiyini bildirmək istəyir.

Hidayətin “Nizaminin məqbərəsi önündə” Nizami Məqbərəsi üçün yazılmış növbəti şeirlərdəndir.

Bura qonaq gələn böyük şairlər
Şair olduğunu demir, utanır [3, s. 410]

Ağayeva Kəmalə “Nizamiyə” adlı şeirində məzarı doğma diyarın şan şöhrəti adlandıraraq, Nizamini əbədiyyətə və bu dünyadan getməyəcək qənimətə bənzədib.

Vardır onun öz heykəli
Könüllərdə yüz heykəli
Gəncə onun öz heykəli
Şeir sənət nizamidir [2, s.4].

Söhrab Tahirin “Nizaminin qəbri üstə” şeirində isə şeirin tamamilə bütün bəndləri məzarı ziyarətə gələn şəxsin məzara üz tutaraq sanki şairlə söhbətindən danışılır. Bəndin birində şairə sual ünvanlanır;

Qəbir daşlarının mərmər üzündə,
Adını qazmışdır adamlar nədən?
Adların içində adını hər kəs
Qoy öz işlərinin üstünə yazsın [7, s.23].

Şairin qəbri üstə vüqarla baş əyən müəllif bu sözləri tək qalan qəbirə ünvanlayaraq verdiyi suala da növbəti bəndlərdə əlavələr edir. Gözəl əməl və ad sahibi olan bir şəxsin nədən adı mərmərə yazılsın ki? Nizami Gəncəvi adı qəlblərdə yaşayır.

Əkbər İsmayıl “Yadigar” şeiri ilə Gülpəri adlı qızın şairin məzarını səyahətə gəlməsini, şairə ölümü yaraşdırmamasını görmək olur. Bu məktəbli qızcığazın səhər tezdən səhəngini doldurub məzara su səpməsini, məzarın yanındakı rəngarəng çiçəklərdən, günəşin məzarı salamlamasından ilhamlandığını, ona olan ehtiramını çatdırmaq istəyir.

Məzarın böyründə açan çiçəklər
Bizim Gülpərinin yadigarıdır.
Bu qızılgüllərə bürürnən məzar
Böyük Nizaminin öz məzarıdır [5, s.64]

Lakin bir qrup şairlər var ki, həmin dövrdə zalım dövrün, zamanın tələbi ilə diqqətdən kənarda qalmış şairin incinmiş ruhuna başıaşağı bir növ xəcalətlə yazılmış şeirlər ithaf etmişdilər. Bu qrup şairlərin şeirlərində məzarın acınacaqlı vəziyyəti, dahi şairin məzarına olan laqeydlikdən narazı şəkildə misralara rast gəlmək olur.

Məsələn, 1927-ci ildə ədəbiyyatşünas, tərcüməçi Əli Nəzmi "Eylədilər" rədifli satirik şeiri yazmışdır. Burada şair fərqli yanaşma edərək öz oxucularını təəssüfləndirir. Şeiri şairin öz dilindən səsləndirərək, şairin özünə olan laqeydlikdən təəssüfləndiyini hiss etdirir. Şair burda bu cür şeir dühasına olan etinasızlığı ürək ağrısı ilə qınayır [10, s. 216]

Heyf birdən birə meydanda zühur eylədilər.
Saldılar yadə məni gorbagor eylədilər [10, s.213]

1941-ci ildə dahi şair üçün həsr olunan daha bir poemada, bu O Qoşqarlının "Görüş" poemasıdır ki onun bir hissəsi də başqa bir qəzetdə şeir şəklində çap olunmuşdur. Burada da yuxarıdakı misralardakı kimi narazılıq hiss olunur. Bu elə həmin il yanvarın 13 də "Kirovabad bolşeviki" qəzetində çap edilmiş şeir idi hansı ki burada "Eylədilər" rədifli şeirdəki kimi şairin öz dilindən giley güzar səslənirdi.

Bilirlər yalqızam çox illərdi mən,
Yanıma gələnim gedənim də az.
Ellərə deyirəm indi dərdimi,
Könül şüşədəndir sınsa sağalmaz [6, s.4]

Əbdülbaqi Fevzinin "Şeyx Nizamiyyə" adlı şeirində Şairin qəbrini görməyə gələrkən yazılan bu şeirində məqbərəyə gələrkən gördüyü mənzərədən, dağınıq türbə görüntüsündən təəssüfləndiyini, onu unudanlardan gileyləndiyini görmək olur.

Əsrlərdən bəri torpağa dönmüş,
Müqəddəs qəbrini görməyə gəldim.
Donmuş əsrlərdən nümunə qalmış,
Dağınıq türbəni gəzməyə gəldim [5, s.17]

Sabir Sadiq "Nizaminin Məqbərəsi önündə" şeirində məqbərə önünə gələnlərin bu əzəmətdən nitqinin quruyub, onun qarşısında deyiləcək kəsəri iti söz tapmamasından danışır. Vüqarı uca, zəkası dərin şairi xaqlın görən gözü, həmçinin də ona dünyanı görməyə göz verən qüvvə olduğunu hesab edir.

Sükut içindədir gəlib gedənlər
Ayaqdan eləbil daş asılıbdır.
Yüz illər adlamış bu məqbərədə
Sanki zaman özü ağırlaşıbdır [5, s.139]

ƏDƏBİYYAT

1. Biriya M. Gəlmişəm (N.Gəncəvinin məzarı qarşısında) Ədəbiyyat qəzeti 1945, 30 may) (Səhifə 2
2. Ədəbiyyat və incəsənət qəzeti 1983 18 noyabr s.4
3. Hidayət. Nizami məqbərəsi önündə. Seçilmiş əsərləri. Bakı: Şərq-Qərb, 2007 488s)
4. Kommunist qəzeti, 1981, 27 sentyabr, s.
5. Nizami Gəncəvinin poetik portreti, Bakı "Zərdabi-Nəşr" MMC, 2021, 200 səh.
6. O. Qoşqarlı. Görüş Nizami poemadan bir parça, "Kirovabad bolşeviki" qəzeti 1941, 13 yanvar) səhifə 4,
7. Rəfibəyli Nigar Nizamiyə. Seçilmiş əsərləri. Bakı. Şərq-Qərb 2004. səhifə 392)
8. Söhrab Tahir. "Seçilmiş əsərləri", Şərq-Qərb, 2005, Bakı, s.23
9. Tofiq Bayram Ölməz şairin şöhrəti. Kommunist qəzeti, 1981, 27 sentyabr
10. http:// az.azvision/az/news.php?id=216

УДК 82-1. 512. 162

*Т.М.Вердиева, Ш.М.Мамедова*
*Гянджинский филиал НАНА*
*Центр Низами Гянджеви*

МАВЗОЛЕЙ НИЗАМИ ГЯНДЖАВИ В АЗЕРБАЙДЖАНСКОЙ ПОЭЗИИ ХХ ВЕКА: РАЗЛИЧНАЯ ПЕРСПЕКТИВА
*РЕЗЮМЕ*

*Ключевые слова:* Низами Гянджеви, XX век, поезия, мавзолей

Основная цель написанной статьи – собрать стихи, связанные с мавзолеем Низами Гянджеви в 20 веке. В XX веке несколько поэтов написали для мавзолея стихи на религиозные темы и в разных настроениях. Основная цель статьи - исследование этого религиозного взаимоотношения. Стихи поэтов имеют как скорбный, так и гордый настрой.

UDC 82-1. 512. 162

*T.M.Verdiyeva, Sh.M.Mammadova*
*ANAS Ganja Branch*
*Nizami Ganjavi Center*

THE NIZAMI GANJAVI MAUSOLEUM IN 20TH-CENTURY AZERBAIJANI POETRY: A DISTINCT PERSPECTIVE
*SUMMARY*

*Key words*: Nizami Ganjavi, XX century poetry, poem, mausoleum, sanctuary

The main goal of the article is to collect the poems dedicated of Nizami Ganjavi in the poetry of the XX century. The main goal of the written article is to collect poems related to Nizami Ganjavi mausoleum in the 20th century. In the 20th century, several poets wrote poems for the mausoleum on religious topics and in different attitudes. The main goal of the article is to explore this religious relationship. The poets' poems have both a mournful and a proud attitude.

***Daxil oldu: 27.10.2023-cü il***